Fevral 2016

# PwC Azerbaijan Times

## 2 saylı Buraxılış

***Buraxılışın əsas xəbərləri:***

- **Gömrük Rəsmiləşdirməsinin Sadələşdirilməsinə dair Qaydalara Dəyişikliklə bağlı Prezident Fərmanı**
- **Satınalmalar üzrə Dövlət Agentliyinin Ləğvinə dair Prezident Fərmanı**
- **İnvestisiya Təşviqi Sənədinin Verilməsi Qaydalarının Təsdiqi ilə bağlı Prezident Fərmanı**
- **Viza Rəsmiləşdirilməsinin Sadələşdirilməsi**
- **İnvestisiya təşviqi tədbirləri**
- **Vergi məcəlləsinə dəyişikliklər**



Burada əks olunan məlumatlarla bağlı hər hansı bir sual yaranarsa, Marketinq və Kommunikasiya məsələləri üzrə Menecer Aysel Süleymanova ilə əlaqə saxlaya bilərsiniz.

aysel.suleymanova@az.pwc.com

**PwC Azərbaycan**

Landmark Ofis Plaza III, 12-ci mərtəbə
90A Nizami küçəsi
Bakı AZ1010, Azərbaycan

Tel: +994 12 497 2515
Faks: +994 12 497 7411

www.pwc.com/az

© 2016 PwC. Bu xəbərdə əks olunan informasiya yalnız ümumi məlumat xarakteri daşıyır və hərtərəfli hüquqi analiz təşkil etmir. Məlumatların dəqiqliyinə və tamlığına dair heç bir zəmanət verilmir. Hər hansı bir nəticəyə gəlib onu tətbiq etməzdən (və ya etməməzdən) əvvəl oxucular öz spesifik məsələləri üzrə mütəxəssislərin məsləhətini almalıdırlar. Oxucuların bu xəbərlərdəki məlumata əsaslanıb hər hansı bir nəticəyə gəlib onu tətbiq etmələrinə və ya hər hansı vacib məqamı nəzərdən qaçırmalarına görə biz heç bir məsuliyyət daşımırıq.

### *Gömrük Rəsmiləşdirməsinin Sadələşdirilməsinə dair Qaydalara Dəyişikliklə bağlı Prezident Fərmanı*

Azərbaycan Respublikasının Prezidentinin 14 yanvar 2016-ci il tarixli fərmanına əsasən "Gömrük sahəsində nəzarətin həyata keçirilməsi ilə əlaqədar bəzi yoxlamaların sadələşdirilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin 22 oktyabr 2015-ci il tarixli 656 nömrəli fərmanının 1-ci hissəsi ləğv edildi. Belə ki, ləğv edilən fərmanın birinci bəndində nəzərdə tutulan və fiziki şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisinə gətirilən istehsal ya kommersiya məqsədləri daşımayan ümumi gömrük dəyəri 10000 ABŞ dolları ekvivalenti məbləğinədək olan malların (aksizli mallar, avtonəqliyyat vasitələri və səfər zamanı fiziki şəxsin zəruri ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan əşyalar istisna olmaqla) gömrük ödənişi ödənilmədən gömrük sərhədindən keçirilməsi qərara alınmışdı.

### *Satınalmalar üzrə Dövlət Agentliyinin Ləğvinə dair Prezident Fərmanı*

Azərbaycan Respublikasının Satınalmalar üzrə Dövlət Agentliyinin ləğv edilməsi haqqında 16 yanvar 2016-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən Satınalmalar üzrə Dövlət Agentliyinin vəzifə və funksiyaları, habelə istifadəsində olan dövlət əmlakı Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə verilir.

### *İnvestisiya Təşviqi Sənədinin Verilməsi Qaydalarının Təsdiqi ilə bağlı Prezident Fərmanı*

Investisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması və investisiyaların təşviqi ilə bağlı mexanizmin və normativ hüquqi aktın hazırlanması məqsədilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq edilməsinə dair 19 yanvar 2016-ci il tarixli Prezident fərmanı ilə təsdiqlənmiş investisiya

təşviqi sənədi Azərbaycan Respublikasının Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" qanunda müəyyən edilmiş güzəştləri əldə etməyə əsas verən sənəddir. Qaydaya əsasən investisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri Nazirlər Kabineti tərəfindən müəyyən olunacaq.

### *Viza Rəsmiləşdirilməsinin Sadələşdirilməsi*

AZAL-ın rəsmi səhifəsinə istinadən bildiririk ki, 1 fevral 2016-cı il tarixindən etibarən Fars Körfəzi (Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt) ölkələrinin vətəndaşları, habelə Yaponiya, Çin, Cənubi Koreya, Malayziya və Sinqapur vətəndaşları ölkədə 30 günlük birdəfəlik vizanı Azərbaycanın bütün beynəlxalq hava limanlarında rəsmiləşdirə biləcəklər.

### *İnvestisiya təşviqi tədbirləri*

19 yanvar 2016-cı il tarixində Azərbaycan Respublikasının Milli Məclisinin rəsmi veb səhifəsində investisiyaların təşviqi ilə bağlı yeni qanun layihəsi yayımlanmışdır. İnvestisiyaların təşviqi ilə bağlı tədbirlər planının əsasını gömrük və vergi güzəştlərinin tətbiq edilməsi təşkil edir.

Layihədə aşağıdakı azadolmalar və güzəştlər 7 il müddətində nəzərdə tutulub:

✓ İqtisadiyyat nazirliyi tərəfindən təqdim edilmiş İnvestisiya təşviqi sənədini almış fərdi sahibkar və hüquqi şəxs həmin sənədi aldığı andan əldə etdiyi gəlirin 50%-i səviyyəsində - gəlir (mənfəət) vergisindən azaddır;

✓ İnvestisiya təşviqi sənədini almış hüquqi şəxs və fərdi sahibkar həmin sənədi aldığı andan əmlak vergisini və torpaq vergisini ödəməkdən azaddır;

✓ İnvestisiya təşviqi sənədi əsasında idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğular - 7 il müddətinə gömrük rüsumlarından azaddır.

### *Vergi məcəlləsinə dəyişikliklər*

2016-cı il fevralın 1-dən etibarən 3 (üç) il müddətində yerli bank və xarici bankın Azərbaycan Respublikasında fəaliyyət göstərən filialı tərəfindən fiziki şəxslərin əmanəti üzrə ödənilən illik faiz gəlirləri, habelə emitent tərəfindən investisiya qiymətli kağızları üzrə ödənilən dividend, diskont və faiz gəlirləri gəlir vergisindən azaddır.